# Azərbaycanın xarici işlər nazirinin İslandiyaya işgüzar səfəri başlayıb



Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun İslandiya Respublikasına işgüzar səfəri başlayıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun İslandiyanın paytaxtı Reykyavik şəhərində keçiriləcək Avropa Şurasının Dövlət və Hökumət Başçılarının IV Zirvə görüşündə iştirakı, habelə Zirvə görüşündə iştirak edəcək digər dövlət rəsmiləri ilə ikitərəfli görüşləri nəzərdə tutulub.

Azərbaycan.- 2023- 17 may.- S. 6.